


*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 72-73 (7121-7122) ❀ Çərşənbə axşamı, 24 sentyabr 2013-cü il ❀ Qəzet ayda 4 dəfə çıxır ❀ Qiyməti 40 qəpik




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının açılışı olmuşdur.

Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.

❀ ❀ ❀

Azərbaycan Prezidenti İlham Əliyev Sabunçu rayonundakı 252 və 80 nömrəli orta məktəblərin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.

❀ ❀ ❀

Prezident İlham Əliyev xalq artisti Arif Məlikova «Heydər Əliyev» ordeni təqdim etmişdir.

❀ ❀ ❀

Yeni dərs ili ərəfəsində ölkə başçısı İlham Əliyev 2013—2014-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə ən yüksək balla daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalamışdır. Yüksək təqaüdə layiq görülənlər arasında rayonumuzdan Qafarlı Şahnaz Bəhman qızı və Əfəndiyeva Ayişə Ədalət qızı da vardır.

❀ ❀ ❀

Azərbaycan Prezidenti İlham Əliyev Xətai rayonundakı 249 və 138 nömrəli orta məktəb binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.

❀ ❀ ❀

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması haqqında Fərman imzalamışdır.

❀ ❀ ❀

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni dərs ili ərəfəsində Bakının Xəzər rayonundakı 234, 125 və 121 nömrəli orta məktəblərin binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşlar.

❀ ❀ ❀

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 3 saylı Bakı «ASAN xidmət» mərkəzi açılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.

**Miri RƏHİMOV.**

## *9 oktyabr—prezident seçkiləri günüdür*

***Sentyabrın 16-dan ölkədə prezidentliyə namizədlərin təbliğat-təşviqat kampaniyasına başlanmışdır.***

***Ölkə başçısı 4 gün ərzində respublikanın 3 bölgəsində olmuş, 16 sosial-iqtisadi obyektin açılışında iştirak etmiş və ya tikinti-abadlıq işlərinin gedişi ilə tanış olmuşdur.***

# XXI ƏSR–«TƏHSİL ƏSRİ»

Sentyabrın 15—16-ı bütün ölkədə Bilik günü kimi qarşılandı. Bu günlər həm də bir sıra köhnə mövsümlərin bağlanışı, yeni mövsümlərin açılışı günü kimi yadda qaldı. Həmin gün cənab ölkə başçısı İlham Əliyev son aylarda ölkənin xarici və daxili sosial-iqtisadi siyasəti ilə bağlı daha gərgin, daha səylə işləməsinə baxmayaraq, sentyabrın 16-da, ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birlikdə Bakının Yasamal rayonundakı 158 nömrəli tam orta məktəbin əsaslı təmirindən və yenidən qurulmasından sonra açılış mərasimində olmuşdur.



Son 10 ildir ki, ölkəmizdə, o cümlədən doğma Qəbələmizdə, təhsilin inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir, müxtəlif proqramlar icra olunur. Azərbaycanda istər təhsil sahəsində, istərsə də digər sahələrdə əldə olunan uğurlar yüksək intellektə malik insan kapitalının formalaşmasında xüsusi əhəmiyyət kəsb edir.

Son 10 ildə təhsilə yönələn xərclər 7,6 dəfə artmış, 408,2 min şagird yerlik 2700-dən çox ümumtəhsil məktəbi, 9780 yerlik məktəbəqədər təhsil müəssisəsi tikilmiş və təmir edilmiş məktəblərin 87,2 faizi komputer və digər İKT avadanlığı ilə təmin olunmuşdur.

Birləşmiş Millətlər Təşkilatı da XXI əsri «Təhsil əsri» elan etmişdir.

Əbəs deyildir ki, 2003-cü ildən sonra Qəbələdə də təhsil sahəsində xeyli işlər görülmüşdür. Belə ki, 5340 şagird yerlik 24 məktəb, o cümlədən Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində 2060 şagird yerlik 9 məktəb binası tikilmişdir. Sentyabrın 1-dən təhsil işçilərinin aylıq əməkhaqqı 10 faiz artırılmışdır. İstər məktəb tikintisində, istərsə də təhsil işçilərinin əməkhaqqının artırılması sahəsində bundan sonra da davamlı tədbirlər görülməsi nəzərdə tutulur.

***Prezident seçkiləri ərəfəsində sentyabrın 16-da və 17-də Qəbələdə daha 2 açılış olmuşdur: Kiçik Pirəli kəndində 180 yerlik yeni məktəb binası açılmış, 576 yaşayış evindən ibarət Nohurqışlaq kəndinə təbii qaz verilmişdir.***

***Xatırladırıq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqust ayının 14-də Qəbələyə səfəri çərçivəsində rayonda 4 sosial-iqtisadi obyektin açılışında iştirak etmişdir. Avqust ayının 15—16-da isə Qəbələdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III zirvə toplantısının iclasları olmuşdur.***